QARABAĞ MEYDAN TAMAŞALARININ ÖZÜNƏMƏXSUSLUĞU

Folklor xalqımızın milli yaddaşını, adət-ənənələrini, tarixini özündə qoruyub yaşatmışdır. Bu baxımdan şifahi xalq yaradıcılığımız bitib-tükənməyən qürur mənbəyimiz, əvəzsiz mənəvi sərvətimizdir. Tədqiqatçılar elmi araşdırmalar zamanı müəyyənləşdirmişlər ki, folklor xalqın əsrlərlə topladığı təcrübəsini, deyimlərini, biliklərini özünə hopduran yaddaşıdır. Xalqın mənəvi varlığı öncə folklorun söz və sənət aləmində əksini tapır. Qeyd olunub ki, digər xalqların folkloru kimi, Azərbaycan folkloru da zənginliyi ilə fərqlənmiş, folklorumuzun çox müxtəlif problemləri, əsasən də yaranma və inkişaf tarixi, janr sistemi, mövzu rəngarəngliyi, ideya-estetik qayəsi həmişə tədqiqatçıların diqqət mərkəzində olmuş, çox müxtəlif istiqamətlərdə, aspektlərdə folklorun bu və ya digər problemləri tədqiqata cəlb edilmiş və öyrənilmişdir".

Azərbaycanın milli folklor yaddaşı bütövdür, toxunulmazdır. Xalqımızın adət-ənənələri, milli söz sənəti alınmaz, fəth olunmaz folklor qalasıdır. Hər bir bölgənin özünəməxsus adət-ənənələri, özəllikləri var. Meydan tamaşaları folklorumuzun ən geniş yayılmış nümunələridir. "Cıdır", "Kəndirbaz", "Kosa-kosa" meydan tamaşaları Azərbaycanın müxtəlif bölgələrində keçirilir. Bu baxımdan Qarabağın meydan tamaşalarının özünəməxsus xüsusiyyətləri var.

Azərbaycan folklorşünaslığı bu istiqamətdə mühüm işlər görmüş el ədəbiyyatının toplanması, təsnifi, genetik kökləri, tarixi inkişafı istiqamətlərində zəngin bir elmi-nəzəri irs yaratmışdır. Elmi mənbədə deyilir ki, "xəritəmiz yalnız folklorumuzda dəyişməyib, Kərküklə və Təbrizlə, Göyçə və Qarabağla, Dərbənd və Borçalı ilə indi də bir yerdə, bütövdə yaşadığımız mənəvi məkanın adı - folklordur... Sehrli və müqəddəs folklor ərazisindən bir sətri, bir qarışı da Qorqud və Koroğlu, Oğuz xan və Boz Qurd, Xıdır Nəbi... düşmənə, yada, qəsbkara güzəştə getməyib". Qarabağda mərasimlər zamanı maraqlı tamaşalar göstərilir, oyunlar keçirilirdi. Kəndin yaşlı sakinlərindən İltifat Rəşid oğlu Qarayev (1927-ci ildə Ağdam rayonunun Gülablı kəndində anadan olmuşdur), söyləyir ki, "otuzuncu illərə kimi, yəni sovet hökuməti qurulana kimi el şənlikləri və toy mərasimi ərəfəsində "Cıdır" mərasimi keçirilirdi.

Jan Jak Russo mərasimlər barəsində haqlı olaraq söyləmişdir: "Məhz bayramlar və açıq havada keçirilən tamaşalar xalqa öz səadətinin şirin duyğularını verə bilər". Yaşlı sakin xatırlayırdı ki, kənd camaatı tərəfindən yürüş altı kilometr ərazidə keçirilirdi. Kəndin başından (yəni İmarət deyilən ərazidən) qurtaracaq nöqtəsində olan Xanəyənin ayağına kimi gedib çıxırdı. Bir nümayəndə başda - İmarətdə, ikincisi isə kəndin ayağında Xanəyə deyilən yerdə dayanırdı. Kəndin özündən deyən atlıları (oğlan, ya qız fərq yox idi) hamısı meydana - cıdır yarışına yığışırdılar. Qarabağ atlarının üstündə gənc oğlan və qızlar arasında yarış keçirilirdi. Bu zamanı atın üstə çapa-çapa papaq götürüb qaçdı oyunu oynayırdılar. Çaparlardan biri atın üstündə olan o biri çaparın papağını götürüb aparsaydı, papağı aparılan çapar, mütləq necə olursa-olsun papağını qaytarıb geri almalı idi. Qarabağ atları üstündə keçirilən bu mərasim üç-dörd gün, hətta bir həftə davam edirdi. Bəzi müəlliflər qeyd edib ki, "xalqın elliklə küçə və meydanlarda keçirdiyi şənliklərdə hər bir fərd özünü böyük toplumun üzvü, parçası, vahidin bir hissəsi kimi hiss etmək imkanı qazanır. Hər kəsin sevinci toplumun fərəhinə qovuşaraq böyük bir şadyanalıq yaradır, ümumi sevincə çevrilir. Ətrafda xoş bir əhval dolaşır. İnsanların qəlbi həm də bu xalqa məxsus olmaqdan gələn bir qürurla dolur. Yəni belə bayramlar gənclərdə vətənpərvərlik hissinin güclənməsinə rəvac verir. İnsanlar müsbət emosiyalarını rəqs və oyunlarda, müxtəlif mərasim və yarışlarda ifadə edirlər". Yarışda at üstündə qalib gələnlərə bal dürməyi, corab, dəsmal, kimin nəyə gücü çatırdısa xələt verirdilər. Yarış iştirakçılarından İsmayılın qızı qara hörüklü Qaratel qara atın belində gəlir kəndin ağsaqqallarının qarşısında dayanır. Bu zaman İrza kişi onun boynundan öpüb, qucaqlayıb, atın üstündən yerə qoyur və bir də yenidən götürüb atın belinə qoyur və deyir:

- Ay camaat, İsmayılın oğlun (yəni qızı deyir) yarışda kim qabağa keçsə, onu özüm tapança ilə atacam. Yarışın hər iki başında Qaratel xanım birinciliyə çıxırdı.

Bundan əlavə Novruz bayramı ərəfəsində keçirilən Kəndirbaz tamaşası da keçirilirdi. Ona görə Novruzqabağı kəndə kəndirbazlar gəlirdi. Oyun başlamazdan əvvəl Aşıq dəstələri, zurna, balaban, dəm tutan, nağara çalanlar el havaları ilə camaatı tamaşaya səsləyərdilər. Aşığın ayağında xrom çəkmə, qənfeyi şalvar, köynək, belində gümüş kəmər, başında buxara papaq olardı. Bu ərəfədə aşıqlar kəndbəkənd gəzib dastanlar danışar, əhalini əyləndirərdilər. Mərasimin əvvəlindən axrına kimi onlar oranı şux etmək üçün məzəli adamlarla zarafatlar edər, onları əyləndirər və kəndirbazı müşayiət edərdilər. Meydanlarda keçirilən Novruz şənliklərində kəndirbaz tamaşaları mərkəzi yerlərdən birini tuturdu. Novruzla bağlı bütün ayin və tamaşalarda qışla yazın mübarizəsi öz əksini tapır.

Qədimdə bu tamaşada kəndir iki dirək arasında düz xətt boyunca deyil, maili yüksələn xətlə tarıma çəkilərdi. Mənbədə deyilir: "kəndirbaz günəşin rəmzidir. Dolayısı ilə yazı təmsil edən qırmızı geyimli kəndirbaz ipin üzərində aşağıdan yuxarıya doğru hərəkət edərdi. Bununla da sanki günəşin doğması, səmada hərəkəti imitasiya olunurdu. Kosa isə ona aşağıdan mane olmaqla onu kəndirdən salmağa çalışardı. Lakin keçi (təkə) gəlib kəndirbazı kosadan xilas edərdi. Kəndirbaz kəndir üzərində yüksəlişini davam etdirir, nəhayət lap yuxarı nöqtəyə çatır. Bu isə günəşin çıxmasını, yazın gəlişini bildirir". Onlar xüsusi kəndir üzərində akrobatik hərəkətlər etdiyi zaman, onu izləyən gözlərin təhlükəli şüasını qırmaq üçün, kəndirbazın keçi papaq adlanan köməkçiləri keçinin başının formasında maska geyərək, yerdə məzəli, maraqlı söhbətlər edir, donbalaq aşır, əlləri üstündə yeriyirdilər. Ayağa qalxanda məzəli zarafatlar edir, tamaşaçıları əyləndirirdilər. Keçi papaqlar mərasimə baxmağa gələn tamaşaçılardan pul yığar, hərəyə bir şəbədə qoşub onları güldürərdilər. Bu hazırlıq işlərindən sonra kəndirbaz kəndirə çıxar, onun üzərində müxtəlif oyunlar göstərər, hamının diqqətini özünə yönəldərdi. Əsas mərasim oyunları Abdal və Gülablı kəndinin kəsişdiyi mərkəzdə "İmarət" (bu yerə kənd əhalisi tərəfindən Ruzu zəmi deyilirdi) deyilən ərazidə keçirilərdi. Beləliklə, keçi papağın əsas funksiyası kəndirbazı bəd-nəzərlərdən qorumaq, onun çaşmasına yol verməmək idi. Tamaşa zamanı keçi papaq onlara pul verən tamaşaçıların adlarını çəkib zarafatlaşar, təşəkkür edərdi. Gülablı kənd sakini İltifaq Qarayev söyləyir ki, oyun zamanı Kəndirbaz körpə uşaqlardan birini əyilib yerdən götürər, kəndirin üzərinə qaldırıb məzəli hərəkətlər edərdi. Uşağın atasından pul və ya xələt alandan sonra onu yerə düşürərdi".

Aşıq Xosrovun (1937-ci ildə Ağdam rayonun Qalayçılar kəndində anadan olmuşdur), yaddaşında bu meydan tamaşası belə qalıb: "İkinci Dünya müharibəsindən sonra camaatın həyat tərzi çox ağır idi. Əhalinin əhvali-ruhiyyəsini yaxşılaşdırmaq üçün rayon mədəniyyət evlərindən mədəniyyət işçiləri, müğənnilər, aşıqlar, kəndirbaz dəstələri kəndlərə çox gəlirdi. Novruz bayramı ərəfəsində kəndimizə yenə kəndirbazlar gəlmişdi. Sazəndələr, zurnaçılar. el havaları ifa edir, keçi papaq məzəli əhvalatlar danışır, təlxəklik edərək tamaşanı canlandırırdılar. Mərasim zamanı keçi papaq məndən xəbər aldı:

- O dayanan kişinin adı nədir?

Mən dedim:

- Adı Sarıdır.

Doğrudan da kişinin rəngi də əynində olan geyimi də sarı rəngdə idi. Keçi papaq qaça-qaça gedib Sarı kişinin qabağında bir mayallaq vuraraq "Tərəkəmə" havasına oynadı və dedi:

Adı sarı, özü sarı, paltarı sarı kəndirbaza xələt ver.

Sarı kişi əlindəki çəliyi yellədi və dedi:

- Ə burdan get, mənim pulum nə gəzir?

Kəndin sayılıb, seçilən kişilərindən olan Muxtar kişi Keçi papağa üç manat pul verib dedi:

- Bu da Sarı kişinin xələti.

Keçi papaq o tərəf bu tərəfə yeridi. Birdən gözü kənd sakini Pərini gördü. Soruşdu: Bu arvadın adı nədir?

Dedilər:

- Pəridir.

Keçi papaq gülə-gülə, oynaya-oynaya gedib Pərinin qabağında dayandı və dedi:

- Pəri, Pəri ay Pəri

Xarab etmə məndə səri.

Kəndirbaz ipin üstündə gözləyir,

Onun xələtini ver bəri

Pərinin pulu olmadığı üçün çıxarıb keçi papağa dəsmal verir".

Ümumilikdə qışın öz yerini yaza verməsini imitasiya edən "Kəndirbaz" tamaşasının, mahiyyəti tamaşa və oyunların əyləncə funksiyasının əsas mənası təqlidi hərəkətlərlə qışın yola salınması, yazın qarşılanmasından ibarətdir. Bu tamaşa qədim insanların fəsillərin bir-birini əvəzləməsi, yeni ilin gəlişi, günəşin gecə-gündüz bərabərliyi nöqtəsinə çatması haqqında dünyagörüşünü əks etdirir.

Novruz bayramında keçirilən ən geniş yayılmış meydan tamaşasının variantı "Kosa-Kosa"dır. Başqa bir mənbədə deyilir: "Cavanlar bir yerə toplaşırlar. Bir nəfər zirək və hazırcavab oğlana tərsinə kürk geyindirirlər, üzünü möhkəm-möhkəm unluyur, başına bir uzun motal papaq qoyur, ayaqlarının altına ayaq formasında ağac sarıyırlar. Boynuna zınqırov salır qapı-qapı gəzdirib pul toplayırlar". Tamaşanı geniş təhlil süzgəcindən keçirən zaman Kosanın qışın rəmzi olduğunu söyləyə bilərik. Əyninə geyindirilmiş kürk, üzünə çəkilmiş un birbaşa köhnə ili - qışı bildirir. Bu tamaşada yazla qışın mübarizəsi əks olunmuşdur. Kosa obrazı təkcə qışı yox, eyni zamanda gəlməkdə, oyanmaqda olan yazı təmsil edir. Onun paltarının altından bağlanan yastıqca kosanın ikicanlı olmasını göstərir.

Mənim kosam canlıdı,
Qolları mərcanlıdı,
Kosama əl vurmayın,
Kosam ikicanlıdı.

Mərasim bitəndən sonra kosaya pay verirlər və bir başqa qonşuya keçərək yenidən oyunu davam etdirirlər. "Belə-belə bütün evləri gəzir, pul, şirni, yumurta alıb, ev sahibinə dua eləyib gedirlər. Yığdıqları şeyləri düzəltdikləri evə gətirir, şənlik keçirirlər".

Tamaşanın sonunda Kosanın yıxılaraq ölməsi, yenidən dirilməsi, yaxud keçi tərəfindən öldürülməsi yeni ilin köhnə ili əvəz etməsinin ölüb-dirilmə şəklində təsəvvür edildiyini göstərir. Bu tamaşada kosa ilə bərabər keçəl də iştirak edir. Kosa qışla yazı təmsil etdiyi kimi, keçəl də keçəlliyi ilə qışı təmsil edir. Novruzla bağlı bütün oyun və tamaşalarda qışla yazın mübarizəsi öz əksini tapmışdır. Mənbədə deyilir: "Adət və ənənələrdən danışarkən belə bir məsələni nəzərə almaq lazımdır ki, haqqında danışdığımız şənliklərin bir çoxu qədim kökə malik olmuşdur. Orta əsrlərdə yaşamış ata-babalarımız bu adət və ənənələrin bir çoxunu öz əcdadlarından irsən qəbul etmişlər".

Xalqımızın müxtəlif bölgə və regionlarında keçirdiyi meydan tamaşaları gələcək nəsillər üçün əvəzsiz bir örnəkdir.

Son dövrdə baş verən hadisələr, daha doğrusu ermənilərin yeritdikləri vandalizm siyasəti nəticəsində son 23 ildə müxtəlif çətinliklərlə üzləşən Qarabağ əhalisi müvəqqəti olaraq torpaqlarının bir hissəsini itirmiş olsa da gələcəyə ümidlə baxırdı. Bu baxımdan meydan tamaşaları insanlarda güclü vətənpərvərlik, mərdlik, igidlik, səfərbərlik hisslərini oyatmaq üçün güclü təkanverici qüvvə hesab edilirdi.

Araşdırmalardan belə qənaətə gəlirik ki, meydan tamaşaları Qarabağın tarixi qədər qədimdir. Burada keçirilən meydan tamaşaları xalq düşüncəsinin məhsulu olaraq onun adət-ənənələrini, qədim insanların həyat tərzini, birlik psixologiyasını özündə cəmləşdirir. Bu baxımdan xalqımızın müxtəlif bölgə və regionlarında keçirdiyi meydan tamaşaları milli dəyərlərimizin, tariximizin, mədəniyyətimizin və folklorumuzun gələcək nəsillərə ötürülməsində əvəzsiz rola malikdir.

Almara NƏBİYEVA,
filologiya üzrə fəlsəfə doktoru,
BDU-nun "Dədə Qorqud"
ETL-in elmi işçisi.

Respublika .- 2025.- 20 mart (№ 61).- S.18.